# Azərbaycan-Türkiyə birgə istehsalı - "Ölü Həsən" filminin çəkilişləri davam edir

**Tamaşaçıların görüşünə Azərbaycan və Türkiyənin ortaq istehsalı olan yeni film - "Ölü Həsən" gəlir. "Ultra Production" və "Poetika Film" (Türkiyə) studiyaları, Azərbaycan Kinematoqrafçılar İttifaqı və İctimai televiziya ilə birlikdə filmin istehsalını reallaşdırırlar.**



Azərbaycan Kinematoqrafçılar İttifaqından AZƏRTAC-a bildirilib ki, prodüserləri Emil Nəcəfov, Pərviz Məmmədov, Əli İsa Cabbarov, ko-prodüserləri Emrah Kılıç və Sevinc Əliyeva, icraçı prodüserləri Elməddin Alıyev və Duyğu Dəvəli olan filmin rejissoru Türkan Hüseyndir.

Birgə istehsal olunacaq ekran əsəri mistik realizm və dram janrlarının birləşdirilməsi əsasında ərsəyə gətirilir. Filmin ssenari müəllifi Türkan Hüseyn, həmmüəllifi İsmayıl İman, quruluşçu operatoru Vasif Vəlizadə, quruluşçu rəssamı Turan Yusifova, ikinci rejissoru Asif İsgəndərli, səs operatoru Emin Mahmudov, qafferi Əli Əbilov, fokus pulleri Ruhin Mirzəyev, qrim ustası Adilə Alıyevadır.

Filmin süjetinə görə, səhvən ölü bilinən Həsən gözlərini açır və kənd əhalisi onun mistik güclərə sahib olduğuna inanır. Hadisələrin sonrakı gedişatı Həsənin ətrafında cərəyan etməyə başlayır və ssenari bu mistik atmosfer əsasında inkişaf etdirilir. Eyni zamanda mistik realizmlə yanaşı, film dram, triller və qara yumor elementlərini də özündə birləşdirir.

İstehsalı 2025-ci ildə başa çatacaq film əvvəlcə beynəlxalq festivallarda nümayiş olunacaq, daha sonra isə kinoteatrlarda tamaşaçılara təqdim ediləcək.

Azərbaycan.- 2025.- 6 may (№91).- S.15.